AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

12 MART 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 57 (6384) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Prezident İlham Əliyev Hindistanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavnanın etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Bavitlunq Vanlalvavna fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Bavitlunq Vanlalvavna etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət etdi.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və turizm sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Səfir Bavitlunq Vanlalvavna diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirdi.

Prezident İlham Əliyev səfirə ölkəmizdə fəaliyyəti müddətində uğurlar arzuladı.

AZƏRTAC

## Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Zati-aliləri xanım Sahle-Uork Zevdeyə

Hörmətli xanım Prezident,

"Efiopiya hava yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Efiopiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 11 mart 2019-cu il.

## Keniya Respublikasının Prezidenti Zati-aliləri cənab Uhuru Kenyattaya

Hörmətli cənab Prezident,

"Efiopiya hava yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Keniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 11 mart 2019-cu il.

## E.S.Babayevin Bakı Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Bakı Dövlət Universitetinin rektoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 11 mart 2019-cu il.

## E.S.Babayevin Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 11 mart 2019-cu il.

## AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun yaradılmasının 90 illiyi tamam olur.

"Azneft" İstehsalat Birliyinin Mərkəzi Kimya Laboratoriyası bazasında 1929-cu ildə ilk Azərbaycan Neft Tədqiqat İnstitutu kimi fəaliyyətə başlayan, 1959-cu ildən isə Azərbaycan Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutu adlandırılan bu mötəbər elmi mərkəz Azərbaycanda neft emalı və neft kimyası sahəsində fundamental tədqiqatları ilə tanınmış və ötən müddət ərzində mühüm nailiyyətlər qazanmışdır. İkinci Dünya müharibəsində qələbənin əldə edilməsində Bakı neftinin əhəmiyyətli rol oynaması, eyni zamanda, institut alimlərinin təqdirəlayiq əməyi ilə bağlıdır. İnstitutda işlənib hazırlanan yeni üsul və texnologiyalar, aparılan yüksək səviyyəli tədqiqatların nəticələri və ali dövlət mükafatlarına layiq görülən ixtiralar sənayedə özünün geniş tətbiqini tapmışdır. İnstitut əməkdaşlarının müvafiq elmi istiqamətlər üzrə tədqiqatları xarici ölkələrin ən sanballı elmi nəşrlərində əks etdirilmişdir. İnstitutun hazırladığı yüksəkixtisaslı kadrlar respublikada və onun hüdudlarından kənarda bu gün də uğurla çalışmaqdadırlar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun ölkədə neft-kimya elmlərinin və neft sənayesinin inkişafında müstəsna xidmətlərini nəzərə alaraq **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 11 mart 2019-cu il.

## Azərbaycan Respublikasında teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizdə teatr sənətinin daha da inkişaf etdirilməsi, teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

**1.** Dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşlarının 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırılması təmin edilsin.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsinin icrası ilə bağlı zəruri tədbirlər görsünlər.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın:

*3.1.* bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirin maliyyələşdirilməsi məqsədi ilə cari ilin və növbəti illərin dövlət büdcəsində maliyyə təminatı məsələlərinin həllini təmin etsin;

*3.2.* bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Bakı şəhəri, 11 mart 2019-cu il.

## UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Müəyyən edilsin ki, UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il mayın 15-dən iyunun 1-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

**2.** Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

*2.1.* Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

*2.2.* Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən sənəd;

*2.3.* UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyununa bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

*3.1.* UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısına uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə UEFA-ya və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

*3.2.* UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

**4.** Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 11 mart 2019-cu il.**

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransaya səfərə gəlib



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva Fransa Respublikasına səfərə gəlib.

AZƏRTAC

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri ilə görüşüb

**Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11-də Parisdə "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüb.**

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşündən məmnun olduğunu dedi. Birinci vitse-prezident Mehriban Əliyeva bildirdi ki, XIX əsrdə Azərbaycanda çox məşhur olan Rotşildlər 1883-cü ildə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti"ni təsis etmişdilər. "Azərbaycan - Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər", - deyən Mehriban Əliyeva bütün bunların Bakıda neft sənayesinin daha da canlanmasına səbəb olduğunu diqqətə çatdırdı. Bununla yanaşı, Rotşild qardaşlarının xeyriyyəçiliklə də məşğul olduqlarını və Bakıda çoxlu gözəl binalar inşa etdiklərini deyən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlığın ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da davam etdirildiyini bildirdi, Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında imzalanacaq strateji əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğuladı. Mehriban Əliyeva David dö Rotşildi ölkəmizə səfərə dəvət etdi.





"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu dedi. "Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən David dö Rotşild Azərbaycana səfər dəvətini məmnunluqla qəbul etdi.

Görüşdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

AZƏRTAC

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti ilə görüşü olub





**Martın 11-də Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "Suez Groupe" şirkəti arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.

AZƏRTAC

## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi professor David Hayat ilə görüşüb





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 11-də Parisdə Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə onkoloji xəstəliklərin qarşısının alınması, bu sahədə təcrübə mübadiləsinin aparılması və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

Həmçinin görüşdə iki ölkənin onkologiya mərkəzləri arasında sıx əməkdaşlığın qurulmasının və birgə layihələrin həyata keçirilməsinin zəruriliyi vurğulandı.

AZƏRTAC

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində bu ölkənin Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Fransanın Baş naziri Eduard Filip Matinyon sarayında qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransanın Baş naziri Eduard Filipin təkbətək görüşü oldu.

Fransanın Baş naziri ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi və əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Eduard Filip Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin iyulunda Fransaya səfərinin və səfər çərçivəsində Prezident Emanuel Makronla görüşünün ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı. Fransanın Baş naziri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirdi. Ölkəmizin böyük iqtisadi potensiala malik olduğunu deyən Eduard Filip fransız şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorunda çalışdıqlarını dedi, bu şirkətlərin Azərbaycan bazarında daha fəal olmasının önəmini vurğuladı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi, bu səfərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu deyən Mehriban Əliyeva Azərbaycanda 59 fransız şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırdı və fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Azərbaycandakı iqtisadi inkişaf proseslərindən danışan Mehriban Əliyeva ölkəmizin Dünya Bankının "Doing Business" hesabatında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasında olduğunu bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti bu il hökumətlərarası komissiyanın toplantısının keçirilməsinin önəmini vurğuladı. Humanitar, mədəniyyət, elm sahələrində əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.





Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bəyan edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirdi ki, hazırkı status-kvo qəbuledilməzdir. Münaqişənin tənzimlənməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var və münaqişə bu qətnamələr əsasında, beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Baş nazir Eduard Filip Fransanın sülh danışıqlarına sadiq qaldığını və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi.

Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi keçirildi.

Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya"nı Azərbaycanın maliyyə naziri Samir Şərifov və Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuan imzaladılar.

*(davamı 3-cü səhifədə)*

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub

*(əvvəli 2-ci səhifədə)*

“Azərbaycan Mərkəzi Bankı ilə “Rotchild & Cie” Bankı arasında Strateji Əməkdaşlıq Sazişi”ni Mərkəzi Bankın sədri Elman Rüstəmov və “Rotchild & Cie” Bankının baş direktoru Aryel Malard dö Rotşild imzaladılar.



“Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi”ni və “Xocasən” deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə”ni “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov və “Thales International” şirkətinin baş direktoru Rafael Eskinazi imzaladılar.

**AZƏRTAC**

# Təhsil naziri Ağcabədi şəhərində vətəndaşları qəbul edib

**Təhsil naziri Ceyhun Bayramov Ağcabədi şəhərindəki Bayraq Muzeyində Tərtər, Ağdam, Ağcabədi, Füzuli, Xocavənd və Laçın rayon sakinlərini qəbul edib.**

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin mart ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun keçirilən qəbulda Tərtər, Ağdam, Füzuli və Ağcabədi rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.



Qəbuldan əvvəl təhsil naziri Ceyhun Bayramov və Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ceyhun Bayramov qəbula yazılmış vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşların müraciətləri əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, dərs saatlarının artırılması, təhsil sənədlərinin tanınması və digər məsələləri əhatə edib.

**AZƏRTAC**

# Nazir Əbülfəs Qarayev Cocuq Mərcanlıda vətəndaşlarla görüşüb

**Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda əhalinin qəbulu keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü martın 11-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd klubunda reallaşıb.**

Qəbuldan əvvəl nazir Əbülfəs Qarayev, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev 2016-cı il Aprel döyüşləri şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Abidənin önünə tər çiçək dəstələri düzülüb.

Sonra nazir Cocuq Mərcanlı məscidini ziyarət edib, “Qayıdış” parkında yaradılan şəraitlə tanış olub. Əbülfəs Qarayev həmçinin kənd klubunda yerləşən Cocuq Mərcanlı kənd kitabxanasının fəaliyyəti ilə də tanış olaraq, tapşırıq və tövsiyələrini verib.



Nazirlikdən AZƏRTAC-a bildirilib ki, qəbulda Beyləqan, Cəbrayıl, İmişli, Füzuli və Xocavənd rayonlarından olan vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Beyləqandan qəbula yazılmış sakinlər rayon Tarix-diyarşünaslıq muzeyinin açıq səma altında olan eksponatlarının bərpası, Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən “Gənclik” xalq teatrının heyəti üçün ustad dərslərinin keçirilməsi, teatra səhnə dekorasiyasının, səhnə geyimlərinin verilməsi və digər məsələlərlə bağlı xahişlərini nazirə çatdırıblar.

Cəbrayıl rayonu sakinlərinin müraciətləri Cocuq Mərcanlı kənd klubunun səsgücləndirici və səsyayıcı avadanlıqlarla təchizatı, kənddə multimedia informasiya mərkəzinin yaradılması, cəbhə bölgəsində işləyən işçilərə əlavə imtiyazların verilməsi barədə olub.

Füzuli rayonundan olan vətəndaşlar istedadlı gənc rəssam Ceyhun Ənvərzadənin rəsm əsərlərinin respublikamızda və xarici ölkələrdə keçirilən sərgilərdə nümayiş olunması, ümummilli lider Heydər Əliyevin 1976-cı və 1982-ci illərdə Füzuli rayonuna səfərləri ilə bağlı çəkiliş lentlərinin əldə olunmasına köməklik göstərilməsi və digər məsələlər barədə xahişlərini bildiriblər.

İmişli rayonundan qəbula gələn sakinlər rayondakı Rəsm qalereyasında ekspozisiyanın yenilənməsi və sərgilənən əsərlərin mübadilə edilməsi, Uşaq incəsənət məktəbinə musiqi alətlərinin verilməsi, rayon Tarix-diyarşünaslıq muzeyində ekspozisiya işlərinin görülməsinə köməklik göstərilməsi barədə müraciət ediblər.

Xocavənd rayonundan olan vətəndaşlar Nərgiztəpə abidəsinin bərpa olunması barədə təkliflərini diqqətə çatdırıblar.

Qəbulda müraciətlərin bir qismi həllini tapıb, digər məsələlər araşdırılması üçün nəzarətə götürülüb və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verilib.

**AZƏRTAC**

# DTX Rusiya təyyarəsinin Bakıya məcburi eniş etməsi ilə bağlı məlumat yayıb

**Martın 11-də saat 14:15-də Azərbaycan Respublikasının hava məkanından keçməklə “Bəhreyn-Moskva” marşrutu üzrə uçuş edən Rusiya Federasiyasının “Uralskiye Avialinii” aviaşirkətinə məxsus “Aerobus 321” tipli təyyarədən Heydər Əliyev Beynəlxalq Hava Limanının dispetçer məntəqəsi ilə əlaqə saxlanılaraq, gövdəsində 222 sərnişinin və ekipaj üzvünün olduğu hava gəmisinin salonunda partlayıcı vasitə olmasına dair yazının aşkar edildiyi barədə məlumat verilib, təyyarə hava limanına məcburi eniş edib.**

Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətindən (DTX) AZƏRTAC-a bildiriblər ki, mövcud beynəlxalq və milli qanunvericiliyə uyğun olaraq, hadisə ilə əlaqədar kompleks təxirəsalınmaz prosedur tədbirlərə başlanılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə yaradılmış Qərargahın sədri - Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev, Dövlət Gömrük Komitəsinin sədri gömrük xidməti general-leytenantı Səfər Mehdiyev, “Azərbaycan Hava Yolları” QSC-nin prezidenti Cahangir Əsgərov və digər aidiyyəti dövlət orqanlarının məsul şəxsləri hava limanına gəliblər.

Müvafiq tədbirlər çərçivəsində hava gəmisinin sərnişinləri və ekipaj üzvləri çevik təxliyə olunub, zəruri şəraitlə təmin edilib, psixoloji və digər yardıma ehtiyacı olanlara xüsusi diqqət göstərilib. Hüquq mühafizə orqanlarının mütəxəssislərindən ibarət əməliyyat-istintaq qrupu və xüsusi təyinatlı heyət tərəfindən texniki, kinoloji və digər vasitələrdən istifadə etməklə təyyarədə kompleks antiterror yoxlamaları aparılıb, hava gəmisinə baxış keçirilib, hadisənin səbəbi ilə əlaqədar hərtərəfli araşdırmalara başlanılıb. Nəticədə təyyarədə partlayıcı maddə və qurğuların olmadığı müəyyənləşdirilib, hadisənin səbəbi ilə bağlı əldə edilməsi təxirəsalınmaz olan məlumatlar toplanılaraq rəsmiləşdirilib.

Hazırda hava gəmisinin sərnişinləri və ekipaj üzvləri müvafiq qaydada yerləşdiriliblər. Təyyarənin ən qısa zamanda təyinat nöqtəsi üzrə uçuşu təmin ediləcək. Beynəlxalq hava limanı ştat rejimində fəaliyyətini davam etdirir.

**AZƏRTAC**

# Mədəniyyət naziri ön cəbhədəki hərbçilərimizlə görüşüb

**Mədəniyyət naziri Əbülfəs Qarayev martın 11-də Azərbaycan Ordusu hissələrinin Cocuq Mərcanlı kəndində yerləşən döyüş postuna baş çəkib.**

Mədəniyyət Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, general-mayor Mayis Bərxudarov hərbçilərimizin yüksək döyüş hazırlığı haqqında məlumat verib. Vurğulanıb ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordu hissələrimizin təchizatı ilə bağlı bütün məsələlər yüksək səviyyədə həll olunur, hərbçilərimiz işğal altındakı torpaqları azad etmək üçün veriləcək əmri yerinə yeritməyə hazırdır.



Nazir Əbülfəs Qarayev ön cəbhədə, düşmənlə üz-üzə dayanan əsgər və zabitlərimizi salamlayaraq bu görüşdən böyük məmnunluq duyduğunu deyib. Bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələr, o cümlədən ordu quruculuğu uğurla inkişaf edir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsinə, Silahlı Qüvvələrimizin maddi-texniki təchizatına daim xüsusi diqqət göstərilir. Bu diqqət və qayğı sayəsində Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malikdir. Qəhrəman hərbçilərimiz 2016-cı ilin aprelində düşmənin ön cəbhədəki təxribatına layiqincə cavab verməklə bunu bir daha nümayiş etdirdilər. Məhz həmin zəfər sayəsində işğal altındakı torpaqlarımızın bir hissəsi, Lələtəpə yüksəkliyi, digər strateji yüksəkliklər düşməndən azad edildi, Cocuq Mərcanlı kəndinin sakinləri doğma yurdlarına qayıtdı. Yenidən qurulan Cocuq Mərcanlı Qarabağ müharibəsində gələcək zəfərlərimizin müjdəsidir.

Nazir qeyd edib ki, bu gün biz bütün sahələrdə, bütün cəbhələrdə düşmənlə mübarizə aparırıq. İşğalçı Ermənistan təkcə torpaqlarımızı deyil, tariximizi, mədəniyyətimizi, musiqimizi, milli mətbəximizi də hədəf alıb. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Bu gün mədəniyyət sahəsində çalışan insanlarımız da düşmənin irsimizə, tariximizə qarşı bəd əməllərinə, məkrinə qarşı mübarizə aparırlar. Tarixi-mədəni irsimizi, mədəni dəyərlərimizi düşməndən qorumaq keçmişimizə və gələcəyimizə sahib çıxmaq deməkdir.

Nazir hərbçilərimizə yeni zəfərlər arzulayaraq Ali Baş Komandanın rəhbərliyi ilə, əsgər və zabitlərimizin əzmi, qəhrəmanlığı sayəsində bütün torpaqlarımızın düşməndən azad olunacağına inamını ifadə edib.

Sonda hərbçilərə kitablar, film izləmək üçün ləvazimatlar, milli filmlərin diskləri hədiyyə olunub.

Hərbi hissənin komandanlığı adından nazir Əbülfəs Qarayevə xatirə hədiyyəsi təqdim edilib.

Qeyd edək ki, mədəniyyət naziri Əbülfəs Qarayev martın 11-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində Cəbrayıl, Füzuli, İmişli, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşların qəbulunu da keçirib.

Nazir mətbuata açıqlamasında Cocuq Mərcanlı kəndində keçirilən vətəndaş qəbulunun, eləcə də ön cəbhədəki hərbçilərimizlə görüşün əhəmiyyətini vurğulayıb.

Yerlərdə vətəndaşlarla keçirilən bu cür görüşlərin mədəniyyət sahəsinin inkişaf etdirilməsində önəmindən bəhs edən nazir bildirib ki, budəfəki görüş xüsusi əhəmiyyət daşıyır. Çünki bu görüş 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun zəfərindən sonra yenidən qurulan Cocuq Mərcanlı kəndində keçirilirdi. Bu kəndin sakinləri doğma torpağına qayıdıb, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində kənd yenidən qurulub. Bizim fədakar vətəndaşlarımız bu gün öz doğma torpağında, təhlükəsiz şəraitində yaşayır.

Nazir vurğulayıb ki, qəbulda sakinlərin müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib: “Mədəniyyət sahəsində işin təkmilləşdirilməsi, mədəni irs abidələrinin qorunması və digər məsələlərlə bağlı müraciətlər oldu. Burada qaldırılan bütün məsələlərin öz həllini tapacaq”.

Diqqətə çatdırılıb ki, kənddə müxtəlif tədbirlərin təşkil olunmasında mədəniyyət işçiləri də daha yaxından iştirak edirlər. Martın 12-də Cocuq Mərcanlıda Novruz bayramına həsr olunmuş təntənəli tədbir keçiriləcək.

**AZƏRTAC**

# İspaniya jurnalı Xocalı soyqırımından yazır

**İspaniyanın “DİPLOMACİA SİGLO XXI” jurnalının fevral buraxılışında “Xocalı soyqırımının qurbanlarının xatirəsinin anım mərasimi” adlı məqalə dərc olunub.**

AZƏRTAC-ın məlumatına görə, məqalədə qeyd edilir ki, fevralın 21-də Azərbaycanın İspaniyadakı səfirliyi tərəfindən Madriddə 1992-ci il 26 fevral tarixində Azərbaycan Respublikasının Xocalı şəhərində erməni millətçiləri tərəfindən törədilmiş soyqırımı qurbanlarının xatirəsinin anım mərasimi təşkil olunub.



AZERBAIYAN

Homenaje a las víctimas del genocidio de Jodyalí

El 21 de febrero, en el Club Financiero Génova de Madrid, la Embajada de la República de Azerbaiyán organizó un Acto de la conmemoración de las víctimas del genocidio, perpetrado el 26 de febrero de 1992 por los extremistas armenios en la ciudad de Jodyalí de la República de Azerbaiyán.

El acto, celebrado en el marco de la Campaña Internacional «Justicia para Jodyalí», tuvo como objetivo sensibilizar con la información sobre el genocidio, decir «NO» a la guerra y al crimen de lesa humanidad.

El evento contó con la participación de los jefes de las misiones diplomáticas acreditadas en España, altos cargos oficiales; representantes de medios de comunicación y comunidad azerbaiyana.

62 Diplomacia

Bildirilir ki, “Xocalıya ədalət!” kampaniyası çərçivəsində təşkil edilən anım mərasiminin əsas məqsədi ictimaiyyəti Xocalı soyqırımı haqqında məlumatlandırmaq, müharibə və insanlıq əleyhinə cinayətlərə qəti etirazın bildirilməsi olub.

Qeyd edək ki, İspaniya Krallığı Diplomatiya Akademiyasının rəsmi mətbuat orqanı olan “DİPLOMACİA SİGLO XXI” jurnalı ölkənin xarici siyasətini işıqlandıran əsas nəşrlərdən biridir.

Xocalı faciəsinə münasibətdə soyqırımı ifadəsinin sözügedən jurnalda işlədilməsi, bu cinayətin erməni millətçiləri tərəfindən törədilməsinin qeyd edilməsi ölkəmizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, habelə Xocalı soyqırımı ilə bağlı haqlı mövqeyinə dəstəyin təzahürüdür.

**AZƏRTAC**

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə və “Konstitusiya Məhkəməsi haqqında” Qanunun 7.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1164-cü maddəsinin şərh edilməsinə dair Salyan Rayon Məhkəməsinin müraciətinə baxılaraq, icraata qəbul olunması haqqında qərardad çıxarılıb.

Müraciətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun aprelin 12-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

# Azərbaycan ombudsmanı azərbaycanlı jurnalistlərin məsələsi ilə bağlı Rusiya ombudsmanına məktubla müraciət edib

**Bu günlərdə Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Elmira Süleymanova azərbaycanlı jurnalistlərin məsələsi ilə bağlı Rusiya Federasiyasının insan hüquqları üzrə müvəkkili Tatyana Moskalkovaya məktubla müraciət edib.**

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, müraciətdə kütləvi informasiya vasitələrində Rusiyada yaşayan və işləyən azərbaycanlı jurnalist Fuad Abbasovun sosial şəbəkələrdə ictimai çıxışları səbəbindən izlənilməsi, təqib olunması, təzyiqlərə məruz qalması, habelə həyatı üçün təhlükənin mövcudluğu ilə bağlı məlumatlar verildiyi, bununla yanaşı, digər azərbaycanlı jurnalist, “Sputnik” Beynəlxalq İnformasiya Agentliyinin Bakı filialının baş redaktoru, Mətin Yaşaroğlunun xidməti vəzifələrini yerinə yetirərkən, xüsusilə Dağlıq Qarabağ münaqişəsinə həsr olunmuş nəşrlərinə görə maneələrə məruz qalaraq cari ilin fevral ayından tutduğu vəzifədən azad edildiyi diqqətə çatdırılıb.

Müvəkkil E.Süleymanova yuxarıda göstərilən faktların yoxlanılmasını, habelə adı çəkilən azərbaycanlı jurnalistlərin beynəlxalq kovensiyalarda və Rusiya Federasiyası qanunvericiliyində təsbit olunmuş hüquqlarının, azadlıqlarının və qanuni mənafelərinin müdafiəsi üçün müvafiq tədbirlərin görülməsini Rusiya Federasiyasının ombudsmanından xahiş edib.

**AZƏRTAC**

# AzMİU Koşitse Texniki Universiteti ilə əməkdaşlığı genişləndirir

**Slovakiyanın Koşitse Texniki Universitetinin nümayəndə heyəti Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) olub.**

AzMİU-dan AZƏRTAC-a bildirilib ki, qonaqlar əvvəlcə nəqliyyat fakültəsinin rəhbərliyi ilə görüşüb, ikitərəfli əlaqələr və gələcək planlar ətrafında fikir mübadiləsi aparıblar. Sonra qonaqlar AzMİU-nun rektoru, professor Gülçöhrə Məmmədova ilə görüşüblər. Görüşdə universitetin prorektorları və dekanları ilə yanaşı, Slovakiyanın “Prospol LTD” şirkətinin nümayəndələri də iştirak ediblər.



Gülçöhrə Məmmədova universitetlər arasında əlaqələrin genişləndirilməsi üçün vacib addımlar atmağa hazır olduğunu bildirib. Qeyd olunub ki, AzMİU-nun nəqliyyat fakültəsi ilə Koşitse Texniki Universiteti arasında bağlanmış memoranduma əsasən, hər iki ali məktəbin müəllimləri fəal şəkildə əməkdaşlıq edirlər. Bu əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan rektor görüşün ikitərəfli əlaqələrin möhkəmləndirilməsinə, faydalı nəticələri olacağına əminliyini bildirib. Rektor, həmçinin AzMİU-nun beynəlxalq əlaqələri, Avropa universitetləri ilə əməkdaşlıq, Avropa İttifaqının maliyyələşdirdiyi beynəlxalq layihələrdə iştirak, ikili diplom layihələri və s. barədə qonaqlara ətraflı məlumat verib.

Koşitse Texniki Universitetinin inşaat fakültəsinin dekanı Piter Mesaros universitetlərarası əməkdaşlığın yeni perspektivlərinin ortaya çıxarılması istiqamətində təkliflər səsləndirib. O bildirib ki, AzMİU-nun nəqliyyat fakültəsi ilə bağlanmış memorandum çərçivəsində əməkdaşlığın genişləndirilməsi hər iki tərəf üçün faydalı ola bilər. O, Koşitse Texniki Universitetində memarlıq və inşaat fakültələrinin olduğunu, gələcək əməkdaşlıq üçün bu detalların nəzərə alınmasını təklif edib. Eyni zamanda, müəllim-tələbə mübadiləsini genişləndirməyi, elmi istiqamətdə birgə konfransların, seminarların keçirilməsini məqsədəuyğun hesab edib.

**AZƏRTAC**

# Təlimlərdə iştirak edən qoşunlar əməliyyat təyinatı rayonlarına çıxarılır



**Genişmiqyaslı təlimlərin planına əsasən “Həyəcan” siqnalı ilə qaldırılan qoşunlar, komanda idarəetmə məntəqələri, döyüş və ehtiyat hərbi hissələri əməliyyat təyinatı rayonlarına çıxarılır.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunların yerdəyişməsi tələblərə uyğun olaraq, gizli və operativ şəkildə həyata keçirilir. Şəxsi heyətin və hərbi texnikanın bütün hərəkəti komendant xidməti tərəfindən tənzimlənir.

**AZƏRTAC**



# Göyçayda vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılır

**Aran iqtisadi rayonuna daxil olan Göyçayda kənd təsərrüfatı xüsusi çəkiyə malikdir. Yeni istehsal sahələri yaratmaq üçün kifayət qədər yerli xammal ehtiyatları mövcuddur. Hazırda gəlirli sahələrdən olan baramaçılığın inkişafı rayon rəhbərliyi tərəfindən diqqət mərkəzində saxlanılır.**



Bu günlərdə rayon İcra hakimiyyətində keçirilən vətəndaşların qəbulunda da bu məsələlər barədə geniş bəhs edilib.

Qəbuldan əvvəl rayon İcra hakimiyyətinin başçısı Mehdi Səlimzadə kəndlərdə əhalinin kompakt yaşadığı ərazilərdə vətəndaşların qarşılaşdığı mövcud problemlərin operativ həlli məqsədilə vaxtaşırı səyyar qəbulların keçirildiyini bildirdi, vətəndaş məmnunluğunun qanun çərçivəsində təmin edilməsi istiqamətində görülən işlərdən danışdı.

Sonra rəsmi qəbula start verildi. Rayon sakinləri tərəfindən müxtəlif problemlər üzrə çıxışlar dinlənildi. Qeyd edək ki, çoxsaylı müraciətlər arasında sosial müavinətlərin rəsmiləşdirilməsi ilə bağlı çətinliklər, ucqar kəndlərin qaz təchizatındakı əngəllər, işlə təminat məsələləri üstünlük təşkil edirdi. Çərəkə kənd ağsaqqalı Bəhram Bəşirov təbii qazın verilməsində fasilələr olduğunu, hətta təzyiqin aşağı olması səbəbindən bəzi evlərin qazsız qaldığını dilə qətirdi. Cavabdeh qurumun nümayəndəsinin çıxışından bəlli oldu ki, iki il əvvəl qeyd edilən kəndlərə təbii qaz çəkilişi zamanı podratçı təşkilatlar tərəfindən texniki səhvlərə yol verilmiş və nəticədə, ucqar ərazidə yerləşən evlərə qaz təchizatında çətinliklər yaranmışdır. Mövcud problemin qısa zamanda aradan qaldırılması üçün regional qaz istismarı idarəsinin rəhbərliyinə xəbərdarlıq edildi. Göyçayda 98 faiz qazlaşmanın müqabilində 60 faiz əhaliyə təbii qaz verilir ki, bu da haqlı narazılığa səbəb olur.

Müraciət edən digər sakinlərdən Xuraman Məmmədova, Vüsalə Qulova, Təbriz Qasımov, Arzu Quliyeva sosial müavinətin rəsmiləşdirilməsində hüquqi yardıma ehtiyac olduğunu, Gözəl Həmidova, Qarabağ müharibəsinin iştirakçısı, Qadir Əhmədov ev şəraitinin yaxşılaşdırılmasını, bir neçə sakin isə işlə təmin edilmələrini xahiş etdilər. Bütün müraciətlərə həssaslıqla yanaşan rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə müvafiq idarə və müəssisələrin rəhbərlərinə vətəndaşların qarşılaşdığı çətinliklərin aradan qaldırılması istiqamətində tapşırıqlar verdi.

Yekunda başçı M.Səlimzadə qarşıdan gələn Novruz bayramına hazırlıqla bağlı xidmət sahələrinin rəhbərlərinin, yerli icra nümayəndələrinin və bələdiyyə sədrlərinin üzərinə düşən məsuliyyəti bir daha diqqətə çatdırdı və onu da qeyd etdi ki, Bakı şəhərində keçirilən kənd təsərrüfatı məhsullarının satışı üzrə yarmarkalarda iştirak etmək üçün Göyçaydan növbəti avtomobil karvanı yaxın günlərdə paytaxta yola düşəcək.

**Maarif RZAYEV,**
**"Respublika".**

*Yasamal rayonu:*

# Tibbi müayinə insanları razı salır

**Bu gün ölkəmizdə səhiyyə sektorunda mühüm irəliləyişlər müşahidə olunur. Prezident İlham Əliyevin qayğı və diqqəti sayəsində yeni-yeni tibb ocaqları istifadəyə verilir, kadr potensialı durmadan güclənir. Bu isə insanları razı salır, üzləşdikləri xəstəliklərin müayinə və müalicəsi müasir tələblər səviyyəsində həyata keçirilir.**

Son dövrdə Bakının Yasamal rayonunda da əhaliyə göstərilən tibb xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində təqdirəlayiq işlər həyata keçirilir. İcra hakimiyyətində səhiyyə islahatlarının uğurla davam etdirilməsi üçün geniş tədbirlər planı hazırlanmışdır.



Rayonda insanların tibbi müayinədən keçirilməsi diqqət mərkəzində saxlanılır. Ölkə başçısının sərəncamı ilə cari ildə fevralın 15-dən mayın 15-dək əhalinin tibbi müayinəsinə başlanılmışdır. Hər yerdə olduğu kimi Yeni Yasamal ərazisində yerləşən 39 nömrəli şəhər poliklinikasında da uğurla həyata keçirilir. İndiki günlərdə müasir tipli, üçmərtəbəli bu səhiyyə ocağına gələn insanların ardı-arası kəsilmir, onlar bura ümidlə gəlir, inanırlar ki, ağxalatlı ömür keşikçiləri onların sağlamlığı keşiyində müsəlləh əsgər kimi dayanacaqlar.



Poliklinikanın foyelərində müxtəlif xəstəliklərdən qorunmaq üçün müxtəlif diaqramlar diqqəti cəlb edir, əhali arasında geniş maarifləndirmə işləri aparılır.

Poliklinikanın baş həkimi tibb sahəsində zəngin təcrübəsi olan, peşəsinin vurğunu kimi tanınan **Hikmət Yaqubovdur.** Biz onunla nahar fasiləsi ərəfəsində iş otağında görüşdük. Söhbətimiz maraqlı keçdi. O, bizi maraqlandıran məsələlərə aydınlıq gətirərək dedi:

—Artıq bir neçə ildir ki, insanlar tibbi müayinənin faydasından bəhrələnirlər. Müxtəlif tibb otaqlarında xəstəliklərdən əziyyət çəkən insanlar müasir avadanlıqlarla müayinədən keçirilir, tibb işçilərimiz çalışırlar ki, xidmətimiz insanları razı salsın. Bu gün rayonun ərazisində 50 min əhali qeydə alınmışdır. Onların sağlamlığının qorunub saxlanılması üçün 155 həkim və orta tibb ixtisaslı işçilər ikiqat səylə çalışır, bir sözlə öz vəzifələrini uğurla icra edirlər.

Baş həkim Hikmət Yaqubov sözünə davam edərək vurğuladı ki, tibbi müayinə dövründə poliklinikanın həkim briqadası səhhətində problem olan xəstələrin yaşadıqları ünvanlara baş çəkir, çalışırlar ki, onların müayinə və müalicəsi yüksək səviyyədə həyata keçirilsin. Yaşlı nəslin nümayəndələrinə, rayonda məskunlaşmış qaçqın və məcburi köçkünlərə göstərilən tibb xidməti qənaətbəxşdir.

Biz poliklinikanın uşaq şöbəsinin müdiri **Nəcibə İbadova** ilə ayrı-ayrı mərtəbələrdə tibbi müayinədən keçmək üçün növbəyə dayanan insanlarla görüşüb söhbət etdik. Onların hər biri ağxalatlılar haqqında xoş sözlər dedi, bildirdilər ki, Yasamal rayonunda tibbi müayinə səmərəli keçir, insanlar poliklinikadan xoş təəssüratla ayrılırlar.

Əhalinin müayinə və müalicəsində həkimlərdən Arzu Paşayeva, Solmaz Bəşirova, Zəkiyyə Pənahova, tibb bacılarından Təravət Sadıqova, Sevinc Hüseynova və başqalarının yaxşı işi qeyd olunmalıdır.

Biz ayrı-ayrı mərtəbələrdə tibbi müayinədən keçən insanlarla söhbət etdik. Onların qəlbindən süzülüb gələn sözləri olduğu kimi qələmə aldıq.

**Baxış Nəbiyev (Böyük Vətən müharibəsi veteranı):**

—Qürur hissi keçirirəm ki, ölkəmizdə yaşlı nəslin nümayəndələri dövlət qayğısı ilə əhatə olunmuşlar. Qeyd etmək istərdim ki, hər il tibbi müayinə ilə bağlı sərəncam imzaladığına görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə bütün veteranlar adından minnətdarlığımı bildirirəm. Şəkər xəstəliyindən əziyyət çəkirəm. Mütləq həkimlərin məsləhətlərindən faydalanacaq, müayinə və müalicə səhhətimdə dönüş yaradacaqdır.

**Abuhəyat Atakişiyeva (evdar qadın):**

—Mədə ağrılarından əziyyət çəkdiyimə görə 39 nömrəli poliklinika ilə sıx əlaqə saxlayıram. Tibbi müayinə digər insanlar kimi, məni də razı salır. Elə buna görə də poliklinikanın baş həkimi Hikmət Yaqubova ailəmiz, şəxsən öz adımdan razılığımı bildirirəm.

**Elşən Adıgözəlov (əmək veteranı):**

—Tibbi müayinə ilə bağlı həyat yoldaşımla birgə 3 yaşlı oğlumu həkimə gətirmişik. Burun-qulaq həkimi Baxış Baxşıyev övladımızı çox yüksək səviyyədə müayinədən keçirib, dəyərli məsləhətlərini verdi. Yəqin ki, uşağın səhhəti qaydasına düşəcəkdir.

Ümumiyyətlə, poliklinikada tibbi müayinə uğurla davam edir, insanların sağlamlığının qorunub saxlanılmasına maksimum səy göstərilir.

**Söhbəti qələmə aldı:**
**Qədir ASLAN,**
**"Respublika".**

# Hikkə ilə tarixi həqiqəti dəyişmək olmaz

**Tarixi həqiqət reallıqdır, onu dəyişmək olmaz. Bu fikri "Respublika" qəzetinin 13 sentyabr 2018-ci il tarixli nömrəsində, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənova "Replika" ilə xitab etməklə diqqətinə çatdırdıq. Orada deyilirdi: "Cənab redaktor, siz "Xalq qəzeti"nin 2018-ci il 22 iyul tarixli sayında "Əkinçi" qəzetinin nəşrinin 143 illliyi və Milli Mətbuat Günü münasibətilə yazdığınız məqalədə (ixtisasca tarixçi olsanız da) milli mətbuat tarixi barədə şərhiniz səthidir, xüsusən "Xalq qəzeti" ölkənin ən qocaman qəzeti", "Xalq qəzeti" bir əsrə yaxın gündəlik nəşr", "Bu qocaman qəzet bütövlükdə son 99 ilin nəhəng salnaməsidir" fikirləri də kökündən yanlışdır. 1919-cu ildən çap olunan "Kommunist" qəzetinin nəşr tarixini nəzərdə tutub, "Xalq qəzeti"nin fəaliyyət tarixini 99 ilə çatdırıb onu "ən qocaman" adlandırırsız. Halbuki, "Xalq qəzeti"nin "Kommunist" qəzeti ilə nə məzmunca, nə də əqidəcə heç bir doğmalığı yoxdur.**

"Kommunist" qəzeti 72 il bolşevik ideologiyasını təbliğ etmişdir. Müstəqillik bərpa olunduqdan sonra "Kommunist" qəzeti redaksiyasının maddi-texniki bazası əsasında yaradılmış "Xalq qəzeti" 27 ildir ki, azad və demokratik ölkəmizdə misli görünməmiş yüksəlişin aynası kimi uğurlarımızın salnaməsi olan rəsmi qəzetlərdən biridir.

"Azərbaycan" qəzeti 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin tribunası olmuşdur. Şərqdə ilk demokratik respublikanın istiqlaliyyət uğrunda mübarizəsini, xalqın özünüdərk və azərbaycançılıq məfkurəsini təbliğ edən ictimai-siyasi qəzet kimi tanınmışdır.

Müstəqillik bərpa edildikdən sonra nəşr olunan müasir "Azərbaycan" qəzeti qanuni varis missiyasını yerinə yetirir. Ona görə də hamıya məlum olduğu kimi, milli mətbuat tariximizdə "Azərbaycan" qəzeti ölkənin ən qocaman qəzeti sayılır".

Güman etmək olardı ki, "Xalq qəzeti"nin baş redaktoru Həsən Həsənov bundan nəticə çıxaracaqdır. Amma əksinə, yenə də hikkə ilə tarixi həqiqəti dəyişdirməyə cəhd edir. Sübut eləməyə çalışır ki, "Xalq qəzeti" ən qocaman anadilli rəsmi nəşrdir: 100-cü ilinə qədəm qoyur.

Azərbaycan Respublikası Prezidenti yanında KİV-ə Dövlət Dəstəyi Fondunun direktoru Vüqar Səfərlinin köməyi ilə "Şərq" qəzetinin 8 fevral 2019-cu il tarixli sayında müxbir İsmayılın "100 yaşlı "Xalq qəzeti" layihəsi dərc edilmişdir.

Həsən Həsənovun təşəbbüsü ilə bu məqalənin dərc edilməsində KİV-ə Dövlət Dəstəyi Fondunun direktoru Vüqar Səfərlini qınamıram. Çünki bu adam ixtisasça fizikdir. Azərbaycanın ədəbi-mədəni və mətbuat tarixindən xəbərsizdir. Onun "Fikir, söz və mətbuat azadlığının, plüralizmin inkişaf etdirilməsi" layihəsinə maliyyə dəstəyini "Şərq" qəzetində dərc edilən qüsurlu yazıya yönəltməsi də bunu sübut edir.

Həsən Həsənovun "Xalq qəzeti"ndə (19 sentyabr 2018-ci il) dərc edilən və saytda (28 sentyabr 2018-ci il) yayımlanan məqalələrinin əsasında "yazılmış" müxbir "məqaləsinin" bir yerində "100 il nəşr olunan "Xalq qəzeti"nin hətta "Əkinçi" qəzetindən də "böyük xidməti"ni nəzərə çarpdırır. Onu Azərbaycanın "ilk rəsmi dövri nəşri, hətta Cümhuriyyət dövrü nəşr edilən "Azərbaycan"ın real hüquqi varisi" adlandırır.

Hörmətli müxbir bilmir ki, tarixçi Həsən Həsənov burada saxtakarlığa uyaraq, öz hikkəsini yeritmək istəmişdir.

*Müxbir yazır: "..."Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist Həsən Həsənov vurğulayıb ki, 100 il yaşamaq və 29 min sayını ərsəyə gətirmək Azərbaycan milli mətbuatının tarixində ikinci bir dövri nəşrə nəsib olmayıb. Anadilli mətbuatımızın banisi Həsən bəy Zərdabi 2 il 2 ayda böyük fədakarlıqla "Əkinçi"nin cəmi 56 nömrəsini çıxara bilib. "Əkinçi"dən 44 il sonra işıq üzü görən "Kommunist" Azərbaycan Xalq Cümhuriyyətinin mətbuat üçün yaratdığı demokratik şəraitdə türk-müsəlman sosial-demokratların orqanı kimi nəşrə başlayıb və ilk nömrəsindən sonra fəaliyyəti dayandırılıb. Bolşeviklərin hakimiyyəti ələ almasından sonra qəzet 1920-ci il aprelin 30-dan nəşrini davam etdirib. "Kommunist" qəzeti gündəlik ictimai-siyasi nəşr kimi ardıcıl olaraq 1920-ci il aprelin 30-dan buraxılsa da, onun 10 illiyinin qeyd olunması üçün tarix müəyən edilərkən ilk nömrəsinin buraxıldığı 1919-cu il əsas götürülüb. 1991-ci ildə dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizdə ilk respublika qurumu və təsisatlarının həqiqi yaranma tarixinin Axərbaycan Xalq Cümhuriyyəti dövründən hesablanması ilə ədalət öz yerini tutdu. Bu mənada sovet hakimiyyəti dövründə 71 il "Kommunist" adı ilə çıxan respublikanın avanqard nəşri "Xalq qəzeti" ilk rəsmi dövri nəşr olunmuş "Azərbaycan"ın real hüquqi varisidir".*

Milli mətbuat tariximizdən məlumdur ki, bolşeviklərin "Kommunist" qəzeti 1919-cu il avqust ayının 29-da gizli nəşr olunmuşdur. Bir də 8 aydan sonra 1920-ci il aprelin 30-da fəaliyyətini davam etdirmişdir. Bu bolşevik məsləkli qəzet olmuşdur.

Həsən Həsənov quraşdırdığı cümlələrlə, belə bir nəticə çıxarır ki, 1991-ci il avqustun 27-də "Kommunist" qəzetinin texniki bazası əsasında fəaliyyətə başlayan "Xalq qəzeti" (mətbuat tariximizdə ilk dəfə "Kommunist" adı ilə çıxan, bu günədək 28 ildir ki, nəşr olunan - "Xalq qəzeti"nin tarixi Cümhuriyyət dövründən başlayır. Cənab baş redaktor 1919-cu ildə bir nömrəsi gizli nəşr olunan bolşevik məsləkli "Kommunist" qəzetinin keçdiyi tarixi fəaliyyətini - "Xalq qəzeti"nin adına çıxır. Belə bir məntiqsiz, qurama bir "kəşf" edir: "Xalq qəzeti" Cümhuriyyət dövrü nəşr olunan "Azərbaycan" qəzetinin qanuni varisidir. 2019-cu ildə 100 illiyi tamam olur.

Lakin bu bir həqiqətdir ki, sovet hakimiyyəti illərində nəşr edilən "Kommunist" qəzeti öz fəaliyyəti dövründə xalqın gündəlik ictimai-siyasi, iqtisadi həyatını işıqlandırır, ölkəmizin salnaməsinə çevrilirdi.

Heç təsadüfi deyildir ki, ümummilli lider Heydər Əliyev yeni ictimai-siyasi dönəmdə "Kommunist" qəzetinin texniki bazası əsasında boy atan "Xalq qəzeti"nin fəaliyyətinin ilk illərində (1994-cü ildə) demişdir:

"Kommunist" adı ilə nəşr edilən bu qəzet bütün Sovet dövrü ərzində Azərbaycanın ictimai-iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur".

Həsən Həsənov "Kommunist" qəzetinin xalqa xidmətinə verilən yüksək qiymətin mahiyyətindən xəbərsiz kimi ondan öz məqsədinə uyğun istifadə etməyə çalışmışdır.

Həsən Həsənov təxəyyülünün gücünə özünü inandırıb ki, Sovet hakimiyyəti illərində nəşr olunan "Kommunist" qəzeti əslində "Xalq qəzeti" imiş. "Dovşanı araba ilə tutan sovet hökuməti" bunu görməyib, Həsən görüb. Onun öz məqaləsindən bir neçə cümlə oxuculara təqdim edirəm:

*"Azərbaycanın ən qocaman anadilli rəsmi nəşri bu gün milli dövlətçilik salnaməsinə çevrilmiş tarixinin 100-cü ilinə qədəm qoyur.*

*...Tarixin ən diqqətçəkən faktlarından biri, şübhəsiz, bir əsrə yaxın müddətdə gündəlik və ardıcıl dövri nəşr kimi işıq üzü görən, ən uzunömürlü milli qəzetimiz olan "Xalq qəzeti"nin yaranması və onun öz fəaliyyətini müxtəlif siyasi quruluşlarda bugünədək davam etdirməsidir.*

*...Azərbaycan Respublikasının ana dilində gündəlik ictimai-siyasi nəşri "Xalq qəzeti"nin (1991-ci ilin avqustunadək "Kommunist" adı ilə nəşr olunmuşdur) ilk nömrəsinin çapdan çıxmasından 99 il keçir.*

*...Azərbaycan Xalq Cümhuriyyətinin mətbuatın fəaliyyəti üçün yaratdığı demokratik şəraitdən istifadə edərək türk-müsəlman sosial-demokratlar olan "hümmət"çilərin 1919-cu il avqustun 29-da buraxdıqları qəzetin ardıcıl, gündəlik fəaliyyəti 8 ay sonra bolşeviklərin çevriliş yolu ilə hakimiyyəti ələ keçirməsindən sonra—1920-ci il aprelin 30-dan başlanmışdır.*

*...Rusiya bolşeviklərinin süngüsü ucunda iqtidara gələn yeni hökumət Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ilin sentyabrından nəşr etdirdiyi və 20 ayda 443 sayı çapdan çıxmış ilk rəsmi dövlət qəzetimiz "Azərbaycan"ın adını və istiqamətini dəyişməklə, onun bazası əsasında "Kommunist" qəzetini buraxmağa başlamışdır.*

*...sadəcə, "Azərbaycan" qəzetinin baş redaktoru Üzeyir bəy Hacıbəyli istefa vermiş, yaradıcı və texniki heyət və qəzetin əmlakı ilə biryerdə bütün redaksiya "Kommunist" qəzetinin sərəncamına keçmişdir. Bu mənada sonrakı sovet hakimiyyəti şəraitində 71 il "Kommunist" adı ilə çıxan respublikanın avanqard partiya-dövlət orqanı ilk rəsmi dövlət qəzetimiz "Azərbaycan"ın real hüquqi varisidir. Lakin kommunist liderlər və ideoloqlar qəzetin bu hüquqi-mənəvi varisliyini unutdurmaq üçün onun ilk onillik yubileyini qeyd etmək üçün nəşr tarixinin 1918-ci ilin sentyabrından yox, "Kommunist" adlı ilk və yeganə nömrənin işıq üzü gördüyü 1919-cu ilin 29 avqustundan başlandığını məqbul saymışlar. Sonrakı onilliklərdə də bu tarix əsas götürülmüşdür. Sovet dövründə də xalqımızın milli maraqlarına, tərəqqisinə mümkün olduğu qədər çıraq tutmuş, torpaqlarımızın bütövlüyü yolunda ümumxalq hərəkatı dövründə və müstəqillik uğrunda mübarizə dönəmində xalqla bir yerdə olmuş, suverenliyimizə sədaqətlə xidmət yolu seçmiş redaksiya kollektivi "Kommunist" adından imtina etdikdən sonra xalqa xidmət amalını əsas götürərək, "Xalq qəzeti" adını seçmişdir. Müstəqillik epoxasında "Xalq qəzeti"nin öz fəaliyyətini ilk rəsmi qəzetimiz "Azərbaycan"ın mənəvi varisi kimi davam etdirilməsi qərara alınmışdır.*

*..."Kommunist" qəzeti SSRİ-də Kommunist Partiyasının buraxılmasından və Azərbaycanın dövlət suverenliyinin elan olunmasından əvvəl öz müstəqilliyini elan edərək 1991-ci il avqustun 27-dən sonra məhz "Xalq qəzeti" adı ilə azad mətbuat orqanına çevrilmişdir.*

*...Cümhuriyyət dövrünün ilk dövlət qəzeti "Azərbaycan"ın istiqlal amalını sovet dövründə gizli və açıq şəkildə yaşatmış "Xalq qəzeti" ölkəmiz yenidən milli dövlətçilik məfkurəsinə qovuşandan sonra azad mətbuat orqanı kimi demokratik medianın inkişaf etdirilməsi işində də öndə gedir, cəmiyyətdəki nüfuzunu gündən-günə artırır, ölkənin öncül qəzeti mövqeyini qoruyub saxlayır. Sabahdan isə bu gün 99 yaşı tamam olan qəzetimizin tarixində 100-cü ilin hesabı açılır".*

Həsən Həsənov güman edir ki, 1919-cu ildə bir nömrəsi gizli mətbəədə çıxan bolşevik "Kommunist" qəzetinin libasına bürünən 71 il Sovet hakimiyyəti dövründə fəaliyyət göstərənelə indiki "Xalq qəzeti" imiş.

Həm də 1919-cu ildə — Xalq Cümhuriyyəti dövründə nəşr edildiyinə görə bu "Azərbaycan" qəzetinin yeganə həqiqi varisidir.

Həsən Həsənov bir də heç kəsi çaşdırmasın deyə, onun öz məqaləsindən geniş iqtibas gətirdim ki, oxucularda müəyyən təsəvvür yaransın. Qoy görsünlər ki, 1919-cu ildə bir nömrə gizli mətbəədə nəşr olunan "Kommunist" qəzeti bolşevik mətbuatıdır, onun Həsən Həsənovun düşündüyü kimi nə Xalq Cümhuriyyəti dövründə çıxan "Azərbaycan" qəzeti ilə, nə də müasir müstəqillik dövrümüzün qaranquşu "Xalq qəzeti" ilə heç bir doğmalığı ola bilməz!..

**Teymur ƏHMƏDOV.**

# Gəncədə "Novruz - 2019" satış yarmarkası



**Gəncənin Nizami Rayon Şeyx Bahəddin küçəsində və Kəpəz Rayon "Qrand Qafqaz" Ticarət Kompleksində Novruz bayramı münasibətilə kənd təsərrüfatı məhsullarının satış yarmarkası təşkil olunub. Yarmarkada Novruz atributları olan Kosa və Keçəl musiqili proqramla çıxıb edib, alıcılara bayram əhval-ruhiyyəsi bəxş ediblər.**

"Novruz - 2019" kənd təsərrüfatı məhsullarının satış yarmarkasında Gəncə və ətraf rayonlarda istehsal edilən kənd təsərrüfatı və yeyinti məhsulları satışa çıxarılıb. Bazar qiymətindən aşağı kənd təsərrüfatı malları, mal, qoyun və toyuq əti, un məmulatları, kolbasa və sosiska məhsulları, yumurta, soğan, kartof, müxtəlif çeşiddə yağlar, tərəvəz, meyvə və s. məhsullar alıcılara təqdim edilib.

Ayrılan yer müasir standartlara uyğun formada təşkil edilib, istehlakçılar və fermerlər üçün əlverişli ticarət mühiti yaradılıb.

Yarmarkada yumurtanın 1 ədədi 10 qəpiyə, unun 50 kiloqramı 26 manat 50 qəpiyə, qoz və fındığın bir kiloqramı 4-6 manata, şabalıd 7 manata təklif olunur. Bunlarla yanaşı, mal əti 7 manat 50 qəpiyə, qoyun əti 8 manata, toyuq əti 3 manat 30 qəpiyə təklif olunur. Kartof və soğanın qiyməti 50-60 qəpik arasında dəyişir.

Qeyd edək ki, "Novruz Bayramı Yarmarkası" ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə paytaxtda 14 ünvanda, habelə ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan isə 21-dək hər gün keçiriləcək.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Xaçmazlı fermerlərin şəhər əhalisinə bayram sovqatı



Respublikamızın bazarlarına, satış yarmarkalarına xaçmazlı fermerlər ilboyu yüz tonlarla müxtəlif kənd təsərrüfatı məhsulları çıxarırlar. Novruz bayramı münasibətilə Bakı şəhərində təşkil olunmuş satış yarmarkalarında da Xaçmazın kənd əməkçiləri istehsal etdikləri yüksək keyfiyyətli meyvə-tərəvəz və süd məhsulları ilə iştirak edirlər. Bu barədə məlumat verən **rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini Emin Ağayev** deyir: "Martın 2-dən başlayaraq hər şənbə-bazar günləri rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları Bakı şəhərinin Nərimanov rayonu ərazisində (Gənclik metrosunun yaxınlığında) təşkil olunmuş satış yarmarkasına 15-16 tona qədər müxtəlif çeşiddə məhsullar - alma, xurma, qoz, fındıq, pomidor, göyərtilər və süd məhulları və s. çıxarırlar. Martın 16-21 tarixlərində isə fermerlərimiz Bakı şəhərinin əhalisinə öz məhsullarını hər gün təklif edəcəklər".

Bundan əlavə, rayon sakinləri üçün də bayram satış yarmarkası təşkil etmişik. Şəhərin Çənlibel parkının geniş bir ərazisində yerləşən yarmarkadan əhali çox sərfəli qiymətlərlə hər cür bayram bazarlıqları edə bilirlər. Qeyd edək ki, hər şənbə-bazar günləri təşkil olunan bu yarmarkalarda rayonun kəndlərindən təxminən 28-30 ton məhsul çıxarılır. Şəhərdə bayram yarmarkası martın 21-dək davam edəcəkdir.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**

# "Azərenerji" ASC enerji sisteminin Dispetçer İdarəetmə Mərkəzini yenidən qurur

**"Azərenerji" ASC etibarlılıq və təhlükəsizliyi gücləndirmək üçün enerjisistemin Dispetçer İdarəetmə Mərkəzini yenidən qurur. Bununla ölkənin enerji sistemi həm idarəetmə, həm də kiber hücumlara qarşı daha dayanıqlı olacaq. Artıq yüksək gərginlikli elektrik ötürmə xətləri və yarımstansiyalarda qəzaların qarşısını almaq məqsədilə gərginliyin kəskin düşməsinə yol verməmək üçün mikroprosessor texnikası əsasında əks-qəza avtomatikası işə salınıb.**

Yenilənəcək SCADA sistemi daha çox enerji obyektini əhatə etməklə müasir idarəetməni nəzərdə tutur və tam avtomatlaşdırılacaq. Hazırda istismarda olan bu sistem 45 enerji obyektini idarə etməyə imkan verir. Layihənin həyata keçiriləcək ikinci mərhələsi çərçivəsində 30 elektrik stansiyasının və 150-yə yaxın yarımstansiyanın əhatə olunması nəzərdə tutulur. Yeni sistemin imkanları geniş olacaq və müstəqil enerji istehsalçılarının qoşulmasına da imkan yaranacaq. Eyni zamanda, yeni sistem elektrik enerjisinin istehsalının və ötürülməsinin müasir texnoloji səviyyədə həyata keçirilməsinə imkan yaradacaq. Bu da ötürmə itkiləri və stansiyalarda yanacaq sərfi nəzərə alınmaqla enerji sisteminin rejimlərinin optimallaşdırılmasına və çəkilən xərclərin minimallaşdırılmasına gətirib çıxaracaq. Bundan başqa, kiber hücumlara dayanıqlı olmaqla, qonşu ölkələrin sistem operatorlarının istifadə etdikləri SCADA sistemlərinin məlumat mübadiləsini, o cümlədən idxal-ixrac əməliyyatlarının yüksək səviyyədə təmin edilməsinə bilavasitə texniki dəstək olacaq. Eyni zamanda, yeni sistemin tərkibində elektrik enerjisi bazarını (spot-bazar və balanslaşdırıcı bazar) texnoloji cəhətdən dəstəkləyən alt-sistem nəzərdə tutulacaq.

Hazırda xarici məsləhətçi şirkətin nümayəndəsinin iştirakı ilə texniki spesifikasiya hazırlanır və mart ayında xarici şirkətlərin də iştirakı ilə tender keçiriləcək. Qeyd edək ki, Azərbaycan enerji sistemində SCADA layihəsinin birinci fazası 2005-2011-ci illərdə həyata keçirilib. Lakin rəqəmsal texnologiya çox sürətlə inkişaf etdiyinə görə, müəyyən komponentlər hazırda istehsalçı şirkətlər tərəfindən dəstəklənmir və artıq istismardan çıxarılıb. Bu da mövcud SCADA sistemində müəyyən problemlər yaradıb. Yenidənqurmanı şərtləndirən amillərdən biri, ötən il istehsalçı şirkətin apardığı audit zamanı bəzi texniki qüsurların müəyyən edilməsi olmuşdur. Digər tərəfdən, ötən ilin iyul ayında enerji sistemində baş vermiş qəza ilə əlaqədar ölkə Prezidentinin elektroenergetika sektoru qarşısında qoyduğu hədəflərə çatmaq üçün "Azərenerji" rəhbərliyi enerjisistemin Dispetçer İdarəetmə Mərkəzinin yenidən qurulmasını günün tələbi kimi qiymətləndirir.

**Teymur ABDULLAYEV,**
**"Azərenerji" ASC-nin İctimaiyyətlə əlaqələr və mətbuat mərkəzinin rəisi.**

## BİLDİRİŞ

"Aqroliziq" Açıq Səhmdar Cəmiyyətinə məxsus kombaynlar üçün 200 ədəd QKT-6 kq-lıq yanğınsöndürmə balonu və 389 ədəd QKT-6 kq-lıq yanğınsöndürmə balonunun dolumu xidmətinin satınalınması məqsədi ilə kotirovka sorğusu keçirilir.

İştirak etmək istəyənlər əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.

Əlavə məlumat üçün əlaqə telefonu: (012) 425-62-18

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 15.03.2019-cu il saat 17:00.

Bağlı zərflər 18.03.2019-cu il tarixdə saat 15:00-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqroliziq" ASC-nin konfrans zalında açılacaqdır.

**İdarə Heyəti.**

## MASALLI RAYON İCRA HAKİMİYYƏTİ

## BİLDİRİŞ

Masallı Rayon İcra Hakimiyyəti Abadlıq, təmizlik işləri üçün geyim, iş ləvazimatları və mal-materialların satınalınmasını təkliflər sorğusu üsulu ilə həyata keçirir. Maraqlanan təşkilatlar (025) 215-23-72 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 15.03.2019-cu il saat 12:00-a qədər qəbul olunur.

**Tender Komissiyası.**

## ELAN

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyası kotirovka sorğusu üsulu ilə Avadanlığın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 404-22-00 (3305) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14 mart 2019-cu il saat 17:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Zabrat/Maştağa şosesi sol 2.

**Tender Komissiyası.**

## ELAN

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyası kotirovka sorğusu üsulu ilə kitabxana üçün dərs kitablarının alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 404-22-00 (3305) nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14 mart 2019-cu il saat 17:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, Sabunçu rayonu, Zabrat/Maştağa şosesi sol 2.

**Tender Komissiyası.**

## Azərbaycan Tibb Universiteti 2019-cu il üçün aşağıda göstərilən 1 Lot üzrə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 Lot üzrə aparılır:**

**Lot-1.** "Digər maşın və avadanlıqların alınması"

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər. 1 Lot üzrə görüləcək işlər 2019-cu il ərzində yerinə yetirilməlidir.

Təkliflərin qiymətləndirilməsində və müqayisəsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir.

-texniki şərtlərin yerinə yetirilməsi aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımı maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 1 LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Ənvər Qasımzadə küçəsi-14 ünvanda yerləşən Azərbaycan Tibb Universitetindən ala bilərlər.

**Əlaqələndirici şəxs: Əhmədov Tağı Rəcəb oğlu, telefon 597-42-60**

**Lot - 1 üzrə cəmi - 70 manat**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Təşkilat: Azərbaycan Tibb Universiteti*
*VÖEN: 1400457111*
*H\hesab: AZ96AİİB38060019440137243111*
*Bank: Kapital Bank ASC Nəsimi filialı*
*VÖEN Bank: 9900003611*
*Kod: 200112*
*M\hesabı: AZ37NABZ01350100000000001944*
*S.V.İ.F.T. Bik: AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün ərizə;*

*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*

*-tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı)bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*

*-İddiaçının son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış:*

*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*- iddiaçının işləri yerinə yetirilməsi üçün lisenziya.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (rus və ya ingilis dilində olan təkliflərə onların Azərbaycan dilinə tərcümə edilmiş surətləri əlavə edilməlidir).

Bütün iddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 aprel 2019-cu il tarixədək, tender təkliflərini və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 26 aprel 2019-cu il saat 17:00-dək Azərbaycan Tibb Universitetinə (Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi-14) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 29 aprel 2019-cu il saat 11:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Poliqrafiya işlərinin satınalınması" üçün 05 fevral 2019-cu il tarixində elan edilmiş açıq tender üzrə malgöndərənlərin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Qanunun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi 19 mart 2019-cu il saat 15.00-dək, tenderə kommersiya təklifinin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 03 aprel 2019-cu il saat 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərinin açılışı 04 aprel 2019-cu il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir.

**Əlaqələndirici şəxs: Aygül Tağıyeva (Tel.: 012-505-02-02, daxili 1108).**

## BİLDİRİŞ

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti nəzdində Birgə Azərbaycan-Fransa Universitetinin 2019-cu ildə "Avadanlığın alınması" maddəsi ilə bağlı 23 fevral 2019-cu il və 05 mart 2019-cu il tarixlərində dərc edilmiş elan ləğv edilir.

**Tender Komissiyası.**

## Abşeron Rayon İcra Hakimiyyəti Xırdalan şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

## TENDERƏ DƏVƏT

**Tender 1 (bir) lot üzrə kecirilir:**

**Lot-1.** Xırdalan şəhərində yolların təmiri

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər hər LOT üzrə 50 (əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Abşeron rayonu, Xırdalan şəhəri, Qalubiyyə küçəsi, 1 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Qasimi, telefon: 442-63-94) ala bilərlər.

*Təşkilat: Abşeron Rayon İcra Hakimiyyəti Xırdalan şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi*
*Hesab: AZ19CTRE00000000000002516832*
*VÖEN: 3100155091*
*Bank: "Kapital bank"ın Abşeron filialı*
*Kod: 200231*
*VÖEN: 9900003611*
*Müxbir hesabı: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.BİK - AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək ücün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 aprel 2019-cu il saat 17.00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 29 aprel 2019-cu il saat 17.00-dək Xırdalan Şəhəri İcra Nümayəndəliyinə (ünvan: Abşeron rayonu, Xırdalan şəhəri, Qalubiyyə küçəsi, 1) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri saat 30 aprel 2019-cu il saat 12.00-da yuxarıda göstərilən ünvanda acılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**TENDER KOMİSSİYASI.**

# Azercell ödənişsiz göz müayinələri təşkil etməyə davam edir



Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC hər zaman fəaliyyətində sosial layihələrə xüsusi yer ayırır. Azercell-in dəstəyi ilə 2011-ci il iyun ayının 1-də yaradılan "Mobil Göz Klinikası" bu layihələrdən biridir. Valideyn himayəsindən məhrum olan uşaqlarda göz xəstəliklərinin müayinəsinin təşkilini və profilaktikasının aparılmasını təmin etmək məqsədilə yaradılan "Mobil Göz Klinikası"nın xidmətlərindən eyni zamanda ahıllar, aztəminatlı ailələr və məcburi köçkünlər də yararlanır. Bu ilin fevral ayında klinikanın həkimləri Qaradağ rayonu, Sahil qəsəbəsində yerləşən "Müşviq" Əlil Uşaqlara Yardım İctimai Birliyinin 5 saylı Bərpa və Sosioloji Mərkəzinə səfər ediblər. Layihə çərçivəsində 25 uşaq oftalmoloji müayinədən keçib. Ehtiyacı olan şəxslərə lazımi müalicə yazılıb və müvafiq eynəklər təyin edilib.

Qeyd edək ki, layihə çərçivəsində bütün müayinə və müalicə tədbirləri Azercell-in dəstəyi ilə "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi tərəfindən həyata keçirilir. Fəaliyyətə başladığı gündən "Mobil Göz Klinikası" paytaxt Bakı daxil olmaqla Azərbaycanın əksər rayonlarda yerləşən uşaq və ahıllar evlərini, məktəbləri gəzib və 7500-ə yaxın şəxsə xidmət göstərib. Məlumat üçün qeyd edək ki, 2018-ci il ərzində Azercell "Mobil Göz Klinikası"nda 1368 nəfər müayinədən keçib. ■






## ❑ VENESUELADA ELEKTRİK ENERJİSİ BÖHRANI DAVAM EDİR



Tarixinin ən ciddi siyasi böhranını yaşayan Venesuelada cümə günü axşam saatlarından başlayan və bütün ölkəni qaranlığa qərq edən elektrik enerjisi kəsintisi davam edir. "TRT" telekanalının verdiyi xəbərə görə, yalnız paytaxt Karakasın bəzi hissələrində elektrik enerjisinin verilməsi bərpa olunub.

Ölkədə artıq bir neçə gündür davam edən elektrik enerjisi kəsintisi səbəbindən martın 11-də bütün təhsil müəssisələrində tətil elan edilib. Ölkədə dövlət idarələri də fəaliyyətini dayandırıb. Hökumət ölkənin şərq hissəsindəki su elektrik stansiyasında və elektrik paylama mərkəzi "Quri"də baş verən qəzanın təxribat olduğunu bildirərək, yaranmış vəziyyətin aradan qaldırılacağını qeyd edib.

Dövlət başçısının rabitə, mədəniyyət və turizm üzrə müavini Xorxe Rodriges ölkənin rəsmi televiziya kanalına verdiyi müsahibədə prezident Nikolas Maduronun göstərişi ilə ibtidai məktəblərdən tutmuş universitetlərə qədər ölkədəki bütün təhsil müəssisələrində bazar ertəsi günü tətil edildiyini rəsmən açıqlayıb.

Dövlət idarələri ilə yanaşı, zavodlar, alış-veriş mərkəzləri, özəl qurumların da işləməyəcəyini bildirən X.Rodriges ölkədəki rabitə və internet şəbəkələrinin də çökdüyünü qeyd edərək, böhrandan müvəffəqiyyətlə çıxacaqlarını dilə gətirib.

## ❑ DÜNYADA ƏN ÇOX SİLAH SATAN ÖLKƏLƏRİN ADLARI AÇIQLANIB



Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutu dünya üzrə ən çox silah satan ölkələrin sıralandığı illik hesabatını açıqlayıb. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, sənədə əsasən, 2014-2018-ci illərdə dünya üzrə silah satışının ümumi həcmi 2009-2013-cü illərlə müqayisədə 7,8 faiz artıb.

Məlumata görə, bu dövr ərzində dünyanın ən böyük silah ixracatçılarının beşliyinə ABŞ, Rusiya, Fransa, Almaniya və Çin daxildir. Dünyada silah satışının, ümumilikdə 75 faizinə məhz bu ölkələr nəzarət edir.

Eyni zamanda, bildirilir ki, Avropa və Şimali Amerikadan kənarda olan ölkələrin silah ixracatındakı payı isə olduqca azdır. Belə ki, Çinin ixracı 2009-2013-cü illərlə müqayisədə son dörd ildə cəmi 2,7 faiz artıb.

Bununla yanaşı, 2009-2013-cü illərlə müqayisədə, 2014-2018-ci illərdə İsrail, Cənubi Koreya və Türkiyənin silah ixracı müvafiq olaraq 60, 94 və 170 faiz təşkil edib.

Hesabata əsasən, ABŞ dünya üzrə silah satışının 36, Rusiya 21 faizini həyata keçirir. Amerika silahlarının ən böyük idxalçısı 22 faizlə Səudiyyə Ərəbistanı, Rusiyanınkı isə 27 faizlə Hindistandır.

## ❑ RUSİYA AVROPAYA RUBLLA İLK QAZ SATIŞINI HƏYATA KEÇİRİB

Rusiyanın "Qazprom" şirkəti Qərbi Avropaya Rusiya rublu ilə ilk qaz satışını həyata keçirib. Bu barədə "TRT" telekanalı məlumat yayıb. "Qazprom"un ixracat qolu "Qazprom Export"dan verilən yazılı açıqlamada bildirilir ki, Qərbi Avropaya rublla ilk təbii qaz satışı elektron satış platforması üzərindən həyata keçirilib.



"Qazprom Export"un baş direktoru Yelena Burmistrova mövzu ilə bağlı deyib: "Rubl üzərindən həyata keçirdiyimiz satış təkcə kommersiya deyil, eyni zamanda simvolik məna daşıyır. Rublla təbii qaz satışlarını artırmaq niyyətindəyik".

Bildirilir ki, elektron satış platforması Avropa istehlakçılarına mövcud sazişlərlə yanaşı, əlavə təbii qaz satılmasını da təmin edir.

ABŞ və bir çox Qərb ölkəsinin tətbiq etdiyi sanksiyalarla bağlı Rusiya rəsmiləri ölkə iqtisadiyyatında dolların istifadəsini azaltmağa çalışır.

Qeyd edək ki, Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin Rusiya Maliyyə Nazirliyi və Rusiya Mərkəzi Bankı ilə ölkə iqtisadiyyatının "dollarsızlaşdırılması" üçün müxtəlif addımlar atılacağını bildirmişdi.

## ❑ HƏSƏN RUHANİ AVROPA İTTİFAQINA ÇAĞIRIŞ EDİB



İran prezidenti Həsən Ruhani ABŞ-ın nüvə müqaviləsini birtərəfli şəkildə ləğv etdikdən sonra yaranan boşluğun Avropa İttifaqı tərəfindən aradan qaldırılmasının vacib olduğunu dilə gətirib. "TRT" telekanalının məlumatına görə, bu barədə Həsən Ruhani Maltanın Tehrandakı səfiri Pol Mifsudun etimadnaməsini təqdim etdiyi qəbulda çıxış edərkən açıqlayıb.

Həsən Ruhani deyib: "Avropa İttifaqından gözləntimiz ABŞ-ın müqavilədən birtərəfli şəkildə çıxmasından sonra yaranan boşluğu kompensasiya etməsidir".

Malta səfiri isə nüvə müqaviləsini Avropa İttifaqı ilə İran arasındakı ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsində "yol xəritəsi" olaraq gördüklərini bildirərək, ölkəsinin nüvə müqaviləsini dəstəklədiyini vurğulayıb.

Xatırladaq ki, Vaşinqton rəhbərliyi BMT-nin Təhlükəsizlik Şurasının beş daimi üzvü və Almaniya ilə İran arasında 2015-ci ildə imzalanan nüvə müqaviləsini 2018-ci ilin may ayında birtərəfli şəkildə ləğv edib.

ABŞ-ın müqavilədən çıxmasından sonra Tehran rəhbərliyi ilə nüvə müqaviləsini qüvvədə saxlamaq istəyən Avropa İttifaqı İranla ticarəti asanlaşdırmaq və Avropa şirkətlərini ABŞ-ın sanksiyalarından qorumaq məqsədilə yaradılan "INSTEX" adında ödəmə mexanizmini işə salmışdı.

## ❑ ÇİNDƏ "BOEİNG"dən İSTİFADƏYƏ QADAĞA QOYULDU




Çin rəhbərliyi Efiopiyada baş verən aviaqəzadan sonra "Boeing 737 Max" təyyarələrinin istifadəsinin müvəqqəti olaraq dayandırılmasına dair qərar qəbul edib. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə əsasən, bu barədə Çinin mülki aviasiya idarəsinin rəsmi saytında məlumat yerləşdirilib.

İdarənin məlumatında deyilir: "Belə bir qərar Çində aviauçuşların təhlükəsizliyinin təmin olunması üçün qəbul edilib. Qərar xüsusi xəbərdarlıqdan sonra ləğv olunacaq".

Eyni zamanda, verilən xəbərə əsasən, sözügedən qərardan öncə "Boeing" şirkəti Efiopiyadakı aviaqəzadan sonra yeni təyyarənin təqdimat mərasimini təxirə salıb.

Xatırladaq ki, Efiopiyada "Ethiopian Airlines" aviaşirkətinə məxsus "Boeing 737" tipli sərnişin təyyarəsi qəzaya uğrayıb. Hadisə zamanı təyyarənin göyərtəsində 149 sərnişin və 8 heyət üzvü də daxil olmaqla, 157 nəfər olub.

Sərnişinlər arasında BMT-nin 19 əməkdaşı, habelə 35 müxtəlif ölkənin vətəndaşları olub. Qəza zamanı sərnişin və heyət üzvlərindən heç kim sağ qalmayıb. Qəzanın səbəbləri hələ məlum deyil. ■

Bakı Xoreoqrafiya Akademiyası

Açıq Tenderə dəvət edir

Tender 1 (bir) lot üzrə keçirilir:

Lot-1. Yumşaq inventarların alınması (balet və rəqs geyimlərini).

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Lot üzrə iştirak haqqı 50 (əlli) manat. Tel.: (012) 597 24 82 (Həmid Məhərrəmov) İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Dövlət Xəzinədarlıq Agentliyi
KOD: 210005
VÖEN: 1401555071
Müxbir Hesabı:
AZ41NABZ01360100000000003944
SWİFT CTREAZ 22
Bakı Xoreoqrafiya Akademiyası
Hesab: AZ30CTRE00000000000002178201
VÖEN: 1400151881 Təsnifat kodu: 142340 Səviyyə: 7
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi, 75.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün ərizə;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);

-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;

-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 19 aprel 2019-cu il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 29 aprel 2019-cu il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Təklif zərfləri 30 aprel 2019-cu il tarixdə saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

**TƏKRAR**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası 2019-cu il üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 6 (altı) lot üzrə keçirilir:

Lot-1: abadlıq işlərinin görülməsi
Lot-2: texniki avadanlıqların alınması
Lot-3: texniki avadanlıqların xidməti və servisi
Lot-4: kitab və dərsliklərin alınması
Lot-5: cari təmir işləri
Lot-6: əsaslı təmir işləri.

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən lotlar üzrə öz tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küçəsi-3 ünvanında (əlaqələndirici şəxs: Ç.Yaqubova, tel.: (454-30-58) ala bilərlər.

LOT-1-100 AZN
LOT-2-100 AZN
LOT-3-100 AZN
LOT-4-100 AZN
LOT-5-100 AZN
LOT-6-100 AZN
Adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
M/H AZ41 NABZ01360100000000003944
S.W.İ.F.T. BİK-CTREAZ22
Adı: DİN-in Polis Akademiyası
Hesab: AZ04CTRE00000000000002077401
VÖEN: 1200114691
Fond: 7
Maddə: 142340

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

- tenderdə iştirak etmək üçün ərizə;
- tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqda müvafiq vergi orqanlarından arayış;
- son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olmuş maliyyə hesabatlarının surəti;
- iddiaçının 1 (bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 aprel 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 19 aprel 2019-cu il saat 17:00-a qədər DİN-in Polis Akademiyasına (ünvan: Xəzər rayonu, Şüvəlan qəsəbəsi, A.İldırım küç.-3, əlaqələndirici şəxs: Ç.Yaqubova, tel.: 454-30-58) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 22 aprel 2019-cu il tarixdə saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.

TƏKRAR

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu

## AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2011-ci il tarixli 149s №-li Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmiş və "Dövlət Proqramı"na edilmiş əlavələrə əsasən Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması məqsədi ilə qəsəbələrin, çoxmərtəbəli binaların, fərdi yaşayış evlərinin layihələndirilməsi və onların tikintisi ilə bağlı işlərin həyata keçirilməsi MKSİF-ə həvalə olunmuşdur.

**Lot 1,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 1 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 2,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 2 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 3,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 3 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 4,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 4 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 5,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 5 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 6,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 6 və 7 №-li yaşayış binalarının tikintisi"

**İştirak haqqı: 200 (iki yüz) manat;**

**Lot 7,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 8 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 8,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 9 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 9,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 10 №-li yaşayış binasının tikintisi"

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 10,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 36 mənzilli 11 №-li yaşayış binasının tikintisi";

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 11,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 28 mənzilli 12 və 13 №-li yaşayış binalarının tikintisi";

**İştirak haqqı: 200 (iki yüz) manat;**

**Lot 12,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 28 mənzilli 14 və 15 №-li yaşayış binaların tikintisi";

**İştirak haqqı: 200 (iki yüz) manat;**

**Lot 13,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 28 mənzilli 16 №-li yaşayış binasının tikintisi";

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 14,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 4 mərtəbəli 28 mənzilli 17 №-li yaşayış binasının tikintisi";

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 15,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 432 şagird yerlik məktəbin tikintisi";

**İştirak haqqı: 150 (yüz iyirmi) manat;**

**Lot 16,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində 140 yerlik uşaq bağçasının tikintisi";

**İştirak haqqı: 120 (yüz iyirmi) manat;**

**Lot 17,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində klub icma mərkəzinin, inzibati binanın, həkim məntəqəsinin (istilik məntəqələri ilə birgə), ATS binasının və rabitə şəbəkəsinin tikintisi"; ats

**İştirak haqqı: 120 (yüz iyirmi) manat;**

**Lot 18,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində abadlıq işləri və yol-küçə şəbəkəsinin tikintisi";

**İştirak haqqı: 180 (yüz səksən) manat;**

**Lot 19,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində xarici və sahədaxili elektrik təchizatı şəbəkəsinin tikintisi";

**İştirak haqqı: 150 (yüz əlli) manat;**

**Lot 20,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində su təchizatı, kanalizasiya, suvarma və drənac sisteminin tikintisi";

**İştirak haqqı: 200 (iki yüz) manat;**

**Lot 21,** "Kürdəmir rayonu ərazisində 563 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan yeni yaşayış məhəlləsində qaz təchizatı şəbəkəsinin tikintisi";

**İştirak haqqı: 150 (yüz əlli) manat.**

MKSİF yuxarıda göstərilən tikinti işləri üzrə iştirak hüququ olan iddiaçıları möhürlənmiş zərflərdə tender təklifləri təqdim etməyə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş,imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər yuxarıda göstərilən məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 57D, (MKSİF) ünvanından, tel.: (+99421) 4318703, 4318769) ala bilərlər.

*Təşkilat: "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu"*
*VÖEN-i: 1400305341*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN (bank): 1401555071*
*Hesab nömrəsi:*
*AZ29CTRE00000000000005728225*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*Kod: 210005*
*S.W.İ.F.T. : CTRE AZ 22*
*Təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi qiymətinin 1%-i həcmində bank qarantiyası (tender təklifinin qarantiyasının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olması müddətindən 30 (otuz) bank günü çox olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*- tender iştirakçılarının (iddiaçıların) son 3 (üç) ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*
*-iddiaçının müvafiq tikinti işlərinin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*
*- iddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*
*- iddiaçının ixtisas göstəriciləri haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyası istisna olmaqla) 2 aprel 2019-cu il saat 18.00-a qədər, tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyasını isə möhürlənmiş ikiqat zərfdə 15 aprel 2019-cu il saat 18.00-a qədər Bakı şəhəri, Tbilisi prospekti 57D (MKSİF) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 16 aprel 2019-cu il tarixdə, saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Dövlət İqtisad Universiteti
## UNEC-in rəsmi internet səhifəsinin yenilənməsi məqsədi ilə

## KOTİROVKA SORĞUSU ELAN EDİR

Sorğuda iştirak etmək istəyənlər müraciət edə bilərlər. Kotirovka sorğusunda iştirak üçün sənədlər 15 mart 2019-cu il saat 12:00-dək qəbul olunur.

